# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Bütöv Azərbaycanın üçrəngli Bayrağı**



6

# Sülh üçün MÖTƏBƏR MÜKAFAT!




2


SƏS

№ 010 (7420)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

6 fevral 2026-cı il.
Qiymәti 1 manat


# Ədalət qalib gəldi: Azərbaycan müharibə cinayətlərinə hüquqi qiymət verdi



6

## Gömrükdə "ilişən" bağlamalar: günah kimdədir?



8

## Danışarsan, cavabını alarsan...



5

## Yaxın illərdə cəmiyyətimizi ən çox narahat edəcək sosial problem hansıdır?



4

## "Ailə quranlar azalır, aliment və mal-mülk davası çoxalır..."



5

## Böyük güclər üçün heç bir insani dəyər yoxdur



7

# Sülh üçün MÖTƏBƏR MÜKAFAT!




## Prezident İlham Əliyev: Qardaş ölkənin bərpa səylərinə Azərbaycanın dəstəyi dostluq münasibətlərimizin əyani ifadəsidir

Qardaşlıq borcumuzun təzahürü olaraq Azərbaycan Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə vermiş, burada "Azərbaycan" məhəlləsinin salınmasında yaxından iştirak etmişdir. Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qardaş ölkəni dərindən sarsıdan zəlzələdən üç il ötməsi ilə əlaqədar ünvanladığı məktubda yer alıb.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, "Bir millət iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə güclü birliyi və strateji müttəfiqliyi bundan sonra da xalqlarımızın firavanlığına töhfə verməklə yanaşı, regional sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına xidmət edəcək.

*Xəbər verildiyi kimi, fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevə də bu mükafat təqdim olunub. Tədbirdə Türkiyə, Qazaxstan, Özbəkistan, Pakistan, Qırğızstan, Livan, İordaniya liderləri çıxış edərək Azərbaycan və Ermənistan liderlərinin sülh istiqamətində apardıqları işləri yüksək qiymətləndiriblər və mükafata layq görülmələri münasibətilə onları təbrik ediblər.*



Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib. Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayedin adını daşıyan bu mükafata layiq görülməyin özü üçün böyük şərəf olduğunu vurğulayan



dövlət başçısı qeyd edib ki, o, elə bir böyük lider idi ki, onun uzaqgörənliyi və fəaliyyəti BƏƏ-ni dünyanın ən firavan və ən uğurlu ölkələrindən birinə çevirmişdir.

"Əziz qardaşım Şeyx Məhəmməd atasının inkişaf, tərəqqi və davamlı müasirləşmə siyasətini davam etdirir. Bu gün Birləşmiş Ərəb Əmirlikləri tarixi köklərinə möhkəm bağlı qalmaqla yanaşı, gələcəyə də inamla baxan, sülh və ahəngdar şəraitdə yaşayan bir cəmiyyətin necə qurulması baxımından həqiqətən də bir çox ölkələr üçün nümunədir.

Dinlərarası dialoqun inkişafına verdikləri töhfəyə, həmçinin sivilizasiyaların bir-birinə daha da yaxınlaşması istiqamətində göstərdikləri səylərə görə Əl-Əzhərin böyük imamı, doktor Əhməd Əl-Tayyibə və Roma Papası, Zati-müqəddəsləri Leoya dərin minnətdarlığımı bildirmək istəyirəm. Mərasimə ünvanladıqları xoş müraciətlərində bir daha Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayan bütün həmkarlarıma da minnətdarlığımı bildirirəm. Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq"- dövlətimizin başçısı qeyd edib.

Azərbaycan Prezidenti ölkələr arasında iqtisadi əməkdaşlığın bərpa olunması üçün görülən işləri də qeyd edib: Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik...

Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür".

Azərbaycan lideri onu bu nüfuzlu mükafata layiq görənlərə, həmçinin sülhün əldə olunmasında əməyi keçən bütün şəxslərə dərin minnətdarlığını bildirib.

Daha sonra Ermənistan Respublikasının baş naziri də çıxış edərək bu mükafata layiq görüldüyü üçün minnətdarlığını bildirib və qeyd edib ki, sülhün əldə edilməsi üçün əlindən gələni edib və edəcəkdir. Daha sonra "Zayed İnsan Qardaşlığı Mükafatı"nın digər laureatları- əfqanıstanlı qadın hüquqları fəali və tədqiqatçısı Zarqa Yaftalı və "Taavon" Fələstin təşkilatı adından Nabil Qaddumi çıxış ediblər.

Sonda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Prezidenti İlham Əliyevə və digər laureatlara "Zayed İnsan Qardaşlığı Mükafatı"nı təqdim edib.

Lauretantlar və iştirakçılar tədbirin təşkilinə görə, Birləşmiş Ərəb Əmirlikləri Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Roma Papası XIV Leo və Əl-Əzhər Şərifin böyük imamı, Müsəlman Ağsaqqalları Şurasının sədri, professor Əhməd Əl-Tayyib "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik məktubları ünvanlayıblar.

Göründüyü kimi, Azərbaycan Prezidenti daha bir beynəlxalq mükafata layq görüldü və bu mükafat onun qlobal və regional sülhün əldə olunması, xalqların, ölkələrin dostluq və qarşılıqlı əməkdaşlıq şəraitində yaşamaları istiqamətində göstərdiyi yorulmaz səylərin nətcəsidir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin fəaliyyəti regional sərhədləri çoxdan aşıb və qlobal miqyasda qəbul olunur və hörmət edilir. İlham Əliyevin adı dünya liderləri ilə birgə çəkilir və onun qlobal məsələlərdə mövqeyinə hörmətlə yanaşılır. Xüsusən də, dövlətmizin başçısının sülh siyasəti bütün dünyada müsbət qarşılanır və onun ölkələr arasındakı məsələləri həll etmək bacarığı qiymətləndirilir. Məhz buna görə, belə beynəlxalq mükafata da dünya ölkələrindən cəmi 2 dövlət başçısı layiq görülüb ki, onun da biri və birincisi İlham Əliyevdir.

Azərbaycan rəhbərinin islam dünyasında özünəməxsus nüfuzu və müsəlman ölkələrində hörmətlə qarşılanan mövqeyi var. Son dövlər bu ölkələrlə Azərbaycan arasında münasibətlər daha da yaxınlaşıb və iqtisadi əməkdaşlıq artıb. Bütün bunlar ölkəmizi həm regional miqyasda güc mərkəzinə çevirib, həm də dünya miqyasında Azərbaycanın nüfuzunu artırıb. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin məntiqi nəticəsidir.

**Elçin Bayramlı**





# Sülh üçün Əbu-Dabi platforması

## Azərbaycan–Ermənistan liderlərinin görüşü nə vəd edir?

***2026-cı il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş Naziri Nikol Paşinyan arasında geniş tərkibdə görüş keçirilib. Bu görüş sülh prosesi və iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün davam edən səylərin bir hissəsi olaraq baş tutub. Görüş "Zayed İnsan Qardaşlığı Mükafatı" tədbirinə qatılmaq üçün baş tutan səfər çərçivəsində reallaşıb və hər iki liderin əməkdaşlıq, dialoq və regionda stabilliyin təmin olunması istiqamətində ümumi iradəsini əks etdirir. Görüşün rəsmi hissəsi başa çatıb, tərəflər daha sonra da dialoqu davam etdirmək öhdəliyi ilə ayrılıblar.***

### Görüşün mənzərəsi və konteksti

Azərbaycan və Ermənistan liderləri artıq bir neçə dəfə Əbu-Dabidə görüşərək sülh müqaviləsinin yekunlaşdırılmasına doğru dialoqu davam etdiriblər. Bu görüşlər ilk növbədə iki ölkə arasındakı münasibətləri normallaşdırmaq, sərhədləri delimitasiyası, nəqliyyat dəhlizləri və humanitar məsələlər üzrə müzakirələr aparmaq məqsədi daşıyır. 2025-ci ilin iyulunda keçirilən Əbu-Dabi görüşündə tərəflər sərhəd məsələlərini, Zəngəzur dəhlizinin açılması və sülh sazişinin paraflanması kimi vacib istiqamətləri müzakirə ediblər. Danışıqlar konstruktiv keçib və uzun müzakirə sessiyaları, təxminən 5 saat çəkib.

Əsas müzakirə mövzularından biri sülh müqaviləsi və normal əlaqələrdir. Liderlər sərhəd delimitasiyası, köhnə münaqişələrin həlli prosesləri və dövlətlərarası münasibətlərin normallaşdırılması məsələlərini müzakirə ediblər. Əsas məqsəd sülh sazişinin qəbuluna doğru irəliləmək və diplomatik əlaqələrin bütün sahələrdə normallaşdırılmasını təmin etməkdir.

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda ev sahibliyi etdiyi tarixi Zirvə Görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur.

Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa da minnətdarlığımı bildirmək istəyirəm. O, 2025-ci il avqustun 8-də üçtərəfli Zirvə Görüşünə ev sahibliyi etmişdir. Həmin Zirvə Görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflanmış, həmçinin Birgə Bəyannamə imzalanmışdır. Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur".

Ermənistanla Azərbaycan arasında münaqişənin artıq geridə qaldığını bir daha təsdiqləyən Ermənistanın Baş naziri Nikol Paşinyan bu mükafatı ölkələrimizə beynəlxalq ictimaiyyətin dəstək aktı kimi qiymətləndirdiyini bildirib. O, çox nüfuzlu şəxslərdən ibarət münsiflər heyətinin bu qərarının regionda sülhün güclənməsinə daha da təkan verəcəyini qeyd edib. Həmçinin xalqlarımız arasında əmin-amanlığın təmin olunması və etimada əsaslanması üçün səylərin davam etdiriləcəyini vurğulayıb.

### Kommunikasiya və nəqliyyat dəhlizləri

RAKURS

Əvvəlki danışıqlarda Zəngəzur dəhlizinin açılması və inkişafı kimi məsələlər geniş müzakirə olunub. Bu dəhliz Cənubi Qafqazda tranzit potensialını artıra bilər və regionda iqtisadi əməkdaşlığı gücləndirə bilər. Görüşlər təkcə siyasi səviyyədə deyil, həm də işçi qrupları və ekspert komissiyaları vasitəsilə davam etdirilir. Bununla da görüşlər real, praktik addımlarla müşayiət olunur və konkret nəticələrə yönəlib. Rusiya həm Əbu-Dabidəki görüşləri, həm də Azərbaycan–Ermənistan danışıqlarını dəstəklədiyini bildirib, bunların Cənubi Qafqazda sabitlik gətirə biləcəyinə ümidvar olduğunu açıqlayıb.

Birləşmiş Ərəb Əmirlikləri sülh prosesinə dəstəyini davam etdirir və regiondakı diplomatik səyləri təşviq edir. Əbu-Dabi həm Azərbaycan, həm də Ermənistan liderləri ilə ayrıca görüşlər keçirərək bu dialoq prosesini gücləndirir və sabitlik, əməkdaşlıq üçün şərait yaradır. Rəsmi açıqlamalara görə, liderlər sülh müqaviləsinin imzalanmasına doğru prosesləri davam etdirmək üçün ortaq iradə nümayiş etdiriblər və danışıqlar davam edəcək. Gələcək görüşlərdə sərhəd məsələləri, iqtisadi əməkdaşlıq və nəqliyyat dəhlizləri üzrə konkret mexanizmlər üzərində işlər aparılması planlaşdırılır.

Əbu-Dabidə keçirilən görüş Azərbaycan və Ermənistan arasında diplomatik dialoqun yeni mərhələsinin təzahürüdür. Tərəflər arasında konstruktiv müzakirələr aparılır və sülh sazişinə doğru irəliləyiş üçün konkret addımlar atılır. Bu sülh prosesi yalnız iki ölkənin deyil, Cənubi Qafqaz bölgəsinin sabitliyi və inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə və Cənubi Qafqazda əməkdaşlığın və sabitliyin təmin edilməsinə yönəlmiş səylərinə görə, Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyana Şeyx Zayed Fondunun İnsan Qardaşlığı Mükafatına layiq görülüblər. Fondun baş katibi Məhəmməd Əbdülsəlam qeyd edib ki, Vaşinqtonda İrəvan və Bakı arasında paraflanmış sülh müqaviləsi "böyük diplomatik nailiyyət" və qlobal sülh yolunda mühüm mərhələdir.

### İkitərəfli görüş

İlham Əliyev 2 fevralda Əbu-Dabiyə gəlib və dərhal Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb. Danışıqlar zamanı tərəflər siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıqlarının əhəmiyyətini vurğulayıblar. Həmçinin, BƏƏ-də keçirilən "Sülh Qalxanı 2026" hərbi təlimlərində birgə iştirak, Cənub Qaz Dəhlizi QSC-dəki Azərbaycanın payı üçün alqı-satqı müqaviləsi və müdafiə sahəsində əməkdaşlıq haqqında memorandum müzakirə edilib.

Şeyx Zayed Fondunun İnsan Qardaşlığı Mükafatının verilməsi BƏƏ tərəfindən çox əhəmiyyətli və vacib bir addım kimi qiymətləndirilməlidir. Ermənistan və Azərbaycan arasında danışıqlar prosesi üçün həlledici olan bir görüş 2025-ci ilin aprel ayında Əbu-Dabidə keçirilib. Bu görüş yeni ABŞ administrasiyası tərəfindən dəstəklənib və Vaşinqtonda 8 avqust sammitinin, üçtərəfli bəyanatın qəbul edilməsinin və Ermənistan-Amerika "Tramp Yolu" layihəsinin təməlini qoyub. Mükafat və onun təqdimatının özü BƏƏ diplomatiyasının Cənubi Qafqazda və ondan kənarda əhəmiyyətli bir nailiyyətidir. Lakin İrəvan və Bakı üçün bu, görüşmək və sülhə və əvvəlki razılaşmalara sadiqliklərini təsdiqləmək üçün daha bir fürsətdir. Orbeli Mərkəzinin eksperti Conni Melikyan bildirib ki, "sülh müqaviləsinin" imzalanması yolu ilə sülhün institusionallaşdırılması da daxil olmaqla, əvvəlki razılaşmaların tam və hərtərəfli həyata keçirilməsi mühüm element olacaq".

Politoloq İlqar Vəlizadə qeyd edib ki, mükafatlandırma mərasimi beynəlxalq ictimaiyyətin Ermənistan və Azərbaycan arasında sülhü gerçək bir hadisə kimi qəbul etdiyinin təsdiqidir. "Mükafat sülh gündəliyini gücləndirməli və Ermənistana nümayiş etdirməlidir. Revanşizmin və ya mövcud müqavilələrin yenidən baxılmasının ölkə xaricində dəstək tapmayacağına bir işarədir.

### Bu arada

Paşinyan həmvətənlərini inandırmağa çalışır ki, Azərbaycanla əməkdaşlıq Ermənistan üçün görünməmiş imkanlar aça bilər. Xüsusilə, İrəvan Ermənistan və Azərbaycan enerji sistemlərinin inteqrasiyasında maraqlıdır. Baş nazirin sözlərinə görə, bu, hər iki ölkəyə artıq elektrik enerjisini təmin edə biləcəkləri potensial müştərilərin siyahısını genişləndirməyə imkan verəcək. "Hələlik konkret layihələr açıqlanmayıb, lakin siyasi anlaşma var. Biz vəziyyəti təhlil etdik - düşünürəm ki, Azərbaycan da bunu edib - və burada heç bir təhdid görmürük. Əksinə, biz sülhün möhkəmləndirilməsinə xidmət edən iqtisadi imkanlar görürük", - deyə Paşinyan bildirib.

Azərbaycan öz növbəsində artıq Ermənistanın Zəngəzur bölgəsindən Naxçıvana qədər uzanması planlaşdırılan 1000 MVt gücündə elektrik ötürücü xəttinin tikintisinə başlayıb. Bu, nəticədə İrəvan və Bakını Türkiyə və Aİ ilə birləşdirən beynəlxalq enerji dəhlizi yarada bilər. Bundan əlavə, Ermənistan Azərbaycan vasitəsilə çatdırılması planlaşdırılan 1746 ton Rusiya taxılının daha bir partiyasını alıb. Qatar Gürcüstana və oradan Ermənistanın Dalarik stansiyasına yola salınıb. Xatırladaq ki, Rusiya buğdasının ilk partiyası Ermənistana 5 noyabr 2025-ci ildə, Qazaxıstan buğdasının isə ilk partiyası isə 8 noyabrda çatıb. Bunlar 35 ildə Azərbaycandan Ermənistana ilk birbaşa dəmir yolu daşınmaları idi. O vaxtdan bəri İrəvan bu marşrutla təxminən 20.000 ton taxıl alıb.

Hakim Mülki Müqavilə Partiyası həmçinin İrəvan və Bakının Basarkeçər bölgəsində sərhədin delimitasiyası ilə bağlı tezliklə razılığa gələcəyini gözləyir.

Diqqətəlayiqdir ki, Paşinyanı uzun müddətdir Türkiyə və Azərbaycan üçün işləməkdə günahlandıran və Bakı ilə sülh danışıqlarını Ermənistanın tamamilə məhv edilməsinin başlanğıcı adlandıran Paşinyanın əleyhdarları mövqelərini dəyişməyə başlayıblar. Məsələn, "Bizim Yolumuz" hərəkatının koordinatoru Narek Karapetyan bildirib ki, onun təşkilatı "Tramp Yolu"na və ya Vaşinqtonda paraflanmış sülh müqaviləsinə qətiyyən qarşı deyil. "Ermənistanda Azərbaycan icmasının formalaşmasının qarşısını almaq üçün çalışmalıyıq. Sazişin sadəcə bir kağız parçası deyil, zəmanətli bir sənəd olmasını təmin etməliyik. Biz "Tramp Yolu"na və sülh müqaviləsinə eyni formatda baxırıq. Başqa sözlə, beynəlxalq zəmanətlər olmadan bunun böyük bir problem olduğunu görürük. Sülh müqaviləsi imzalana bilər, amma məqsədimiz bəzi fərqlərlə Ermənistanın bölgədə dinc yanaşı yaşamasına nail olmaqdır Ermənistana qonşu ölkələrdən gələn demoqrafik təhlükənin qarşısını almaq üçün çalışmalıyıq", Karapetyan İctimai Televiziyada çıxışı zamanı bildirib.

**V.VƏLİYEV**

# Yas süfrəsi, toy qiyməti: mərasim evlərində “od tutub yanan” qiymətlər...

***Mərasim evləri — adətən mərasim (yas, dəfn sonrası ehsan), toy kimi rəsmi və ailəvi tədbirlərin keçirildiyi yerlərdir. Xüsusilə yas mərasimlərində çadırlardan ziyadə mərasim evlərinin istifadəsi artıb, çünki bu məkanlar həm tədbirin təşkilinə rahatlıq gətirir, həm də ətrafdakı məkan problemlərini aradan qaldırır (məsələn, həyətdə çadır qurulması ilə bağlı məhdudiyyətlər). SİA mövzu ilə bağlı araşdırma edib.***









ARAŞDIRMA

## Mərasim evlərində yas menyusu və qiymətlər

**Adambaşına menyu**

Bakı mərasim evlərində adambaşına menyu qiymətləri adətən 9–12 AZN civarındadır. Bu əsas menyuya daxil olur:çay, halva, limon, şirniyyatlar, salat, dovğa və plov.

## Yeməyə əlavələr

İstəklərə görə menyuya əlavə olunabilən yeməklər:

-meyvə

-bozbaş

-dolma

Bu əlavələr adambaşına təxminən +2–8 AZN qədər əlavə xərc tələb edir.

Sadə menyu ilə 200 nəfərlik mərasim təxminən 2 050 AZN civarına başa gəlir.

Tam menyu və əlavələrlə bu məbləğ 2 850–4 050 AZN kimi yüksək rəqəmlərə çata bilər.

**Əlavə xidmətlər**

Molla xidmətləri üçün adətən 50 AZN kimi sabit xərc hesablanır. Zalda çiçəklər, dekorasiya, xidmət personalı kimi əlavə xərclər də ola bilər.

## Mərasim evləri kirayəsi və xidmətlər

Mərasim evlərinin zal kirayə haqqı adətən 300–400 AZN aralığındadır, zalın ölçüsündən və qonaq tutumundan asılı olaraq dəyişir.

Böyük zal (200+ nəfər) adətən nisbətən aşağı adambaşına menyu qiyməti ilə təklif olunur, çünki marjinal xərc daha çox qonaq sayına paylanır.

## Niyə mərasim evləri bu qədər bahadır?

**Artan tələb**

Son illərdə insanlar yas mərasimləri üçün çadırlardan çox mərasim evlərinə üstünlük verir. Bu da tələb artımına səbəb olur və qiymətlərə təsir göstərir.

## Komfort üstünlüyü

Mərasim evləri tədbirin təşkilini tam şəkildə özünə götürür — süfrə hazırlanması, qonaqların yerləşdirilməsi və xidmət işləri daha rahatdır. Bu da müvafiq olaraq xərclərin artmasına səbəb olur.

## Qiymətlərin şadlıq sarayları ilə yaxınlaşması

Əvvəllər mərasim evlərində menyular ucuz olduğu üçün fərqlənirdi, amma son illərdə 10+ AZN adambaşı qiymətlər adi hala çevrilib və bəzi hallarda 20 AZN-dən yuxarı menyular da mövcuddur. Toyların bəzən restoran və şadlıq saraylarında qiymətlər Yas menyusuna nisbətən çox yüksək olur, çünki toy üçün menyular bahalı yeməklər, bəzək və əyləncə xərcləri də nəzərə alınır.

Mərasim evləri son illərdə Azərbaycanda, xüsusən Bakı şəhərində yas mərasimlərinin keçirilməsi üçün çadırlardan daha çox seçilir, bu da həm xidmət səviyyəsinə, həm də qiymətlərə təsir edir. Adambaşaq menyu qiymətləri ortalama olaraq 9–20 AZN arasında dəyişir və buna çay, plov, salat, şirniyyatlar kimi ənənəvi süfrə elementləri daxildir. Dəyişikliklərə görə menyuya əlavə də daxil etmək mümkündür, lakin bu əlavə xərc yaradır.

## Azərbaycan reallığı

Azərbaycanda yas mərasimləri təkcə dini və mənəvi borc deyil, eyni zamanda ciddi maliyyə yükünə çevrilib. Xüsusilə mərasim evlərində:

- Adambaşına menyu (10–20 manat),
- Zal icarəsi,
- Əlavə yeməklər və xidmətlər

ailələri minlərlə manat xərclə üz-üzə qoyur.

Bir çox hallarda yas süfrələri toy menyusuna yaxınlaşdırılır, sadə ehsan anlayışı arxa plana keçir. Sosial təzyiq (“ayıb olar”, “camaat nə deyər”) bu xərcləri daha da artırır.

## Dünyada vəziyyət necədir?

**Türkiyə**

Yas mərasimləri əsasən evdə və ya məscid həyətində keçirilir. Yemək bələdiyyələr və ya icmalar tərəfindən pulsuz və ya simvolik şəkildə verilir. Ailə üzərinə kommersiya yükü qoyulmur.

**İran**

Əsas diqqət dua və mərasimə yönəlir. Yemək sadə olur və çox vaxt icma dəstəyi ilə təmin edilir. Bahalı menyular sosial baxımdan qəbul edilmir.

## Avropa ölkələri

Yas mərasimlərində yemək mərkəzi element deyil. Çox zaman yalnız çay, qəhvə, yüngül ikram verilir. Xərclər minimum səviyyədə saxlanılır, kommersiyalaşma yoxdur.

**Yaponiya**

Mərasimlər rəsmi və sadədir. Qonaqlara simvolik hədiyyə və ya yüngül qida təqdim olunur. Yasın “göstərişə” çevrilməsi etik sayılmır. Dünyada yas kədərin paylaşılması kimi qəbul olunur, Azərbaycanda isə getdikcə maliyyə yarışına çevrilir.

Dünya təcrübəsi göstərir ki, yas mərasimlərinin bahalı menyularla keçirilməsi nə dini, nə də sosial baxımdan zəruridir. Əksinə, bu yanaşma ailələrin ağrılı günündə onlara əlavə psixoloji və maliyyə yükü yaradır. Azərbaycanda da bu məsələyə ictimai müzakirə, etik çərçivə və hətta tənzimləmə mexanizmləri lazımdır.

***Ayşən Vəli***

---

# Yaxın illərdə cəmiyyətimizi ən çox narahat edəcək sosial problem hansıdır?



***“Yaxın 10 ildə cəmiyyətimizi narahat edəcək ən ciddi sosial problem ailə institutunun zəifləməsi və bunun doğuracağı demoqrafik və mənəvi fəsadlar olacaqdır".***

Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. Ekspert sözlərinə belə davam edib: ”Hazırda dünyada gedən iqtisadi və siyasi proseslər, qloballaşma, internetin sürətli inkişafı, sosial şəbəkələrin həddindən artıq genişlənməsi və həyat tempinin sürətlənməsi insanların düşüncə tərzinə və davranışına ciddi təsir göstərir. Bu dəyişikliklər yalnız böyük dövlətlərə deyil, bizim kimi cəmiyyətlərə də birbaşa təsir edir. Çünki biz də qlobal dünyanın ayrılmaz hissəsiyik və baş verən proseslərdən kənarda qala bilmərik.

Bu təsirlərin ən həssas nöqtəsi isə ailədir. Son illərin statistikası göstərir ki, boşanmaların sayı artır, gənclər evliliyə daha məsuliyyətsiz və ya gec yanaşır, tək valideynli ailələrin sayı çoxalır, doğum səviyyəsi isə azalır. Bu tendensiya davam edərsə, yaxın illərdə ölkəmiz demoqrafik problemlərlə, yəni əhalinin azalması və insan resurslarının zəifləməsi ilə üz-üzə qala bilər.

Boşanmaların artması təkcə ailədaxili məsələ deyil, bütövlükdə cəmiyyətə təsir edən sosial problemdir. Natamam ailədə böyüyən uşaqlar bir çox hallarda yetərli nəzarət və tərbiyə ala bilmirlər. Ata və ana modelinin birlikdə olmaması uşağın psixoloji inkişafına mənfi təsir göstərir. Xüsusilə yeniyetmə yaşlarında nəzarətin zəifləməsi gənclərin zərərli vərdişlərə – narkotiklərə, alkoqola, qumara və digər asılılıqlara meyl etməsinə səbəb ola bilər.

Təəssüf ki, müasir sintetik narkotiklər gənclərin sağlamlığını çox qısa müddətdə məhv edir, onların həm fiziki, həm də psixoloji vəziyyətini ağırlaşdırır. Bu isə tək bir fərdin deyil, bütövlükdə millətin genefonduna vurulan zərbədir. Asılılıqların artması cinayətlərin çoxalmasına, oğurluq, zorakılıq, yol-nəqliyyat hadisələri və digər hüquq pozuntularının artmasına gətirib çıxarır. Nəticədə dövlət üçün sosial və iqtisadi yük də böyüyür – hüquq-mühafizə, səhiyyə və penitensiar sistemlərə əlavə xərclər tələb olunur.

Bütün bunları nəzərə alaraq demək olar ki, ailə institutunun zəifləməsi domino effekti yaradaraq digər sosial problemləri də dərinləşdirir. Bu mənfi proseslərin qarşısını almaq üçün ilk növbədə milli-mənəvi dəyərlərimizə sahib çıxmalı, ailə məsuliyyəti və valideynlik mədəniyyətini gücləndirməliyik. Gənclər evliliyə daha hazırlıqlı və şüurlu yanaşmalıdırlar. Kütləvi informasiya vasitələrində, məktəblərdə və ali təhsil müəssisələrində maarifləndirmə işləri aparılmalı, zərərli vərdişlərin fəsadları geniş şəkildə izah edilməlidir. Ailədaxili dialoq, qarşılıqlı hörmət və səbir təşviq olunmalıdır. Eyni zamanda dini və mənəvi dəyərlərimizə əməl etmək də sağlam ailə modelinin qorunmasına mühüm töhfə verə bilər.

Belə hesab edilir ki, sağlam ailə sağlam cəmiyyət deməkdir. Əgər ailə institutunu qoruya bilsək, digər sosial problemlərin də qarşısını xeyli dərəcədə ala bilərik. Əks halda, yaxın illərdə boşanmaların, asılılıqların və demoqrafik gerilləmənin artması cəmiyyətimiz üçün ən böyük risklərdən birinə çevriləcəkdir”.

***Günel Fərzəliyeva***

# Reabilitasiya mərkəzlərində keyfiyyətə kim cavabdehdir?



**_Özəl reabilitasiya mərkəzləri — fərdi və ya sosial funksiyalarını itirmiş şəxslərin həyat keyfiyyətini bərpa etmək üçün tibbi, psixoloji və sosial xidmətlər göstərən qurumlardır. Bunlar zədədən sonra reabilitasiya, əlilliyi olan şəxslərin bərpası, nevroloji və ortopedik problemlərlə mübarizə, maddə asılılıqdan azad olma kimi xidmətlər verə bilər. Bu sahədə standart və tələblərin formalaşdırılması həm xəstələrin hüquqlarını qorumaq, həm də xidmət keyfiyyətini təmin etmək baxımından vacibdir. SİA mövzu ilə bağlı araşdırma edib._**

## Azərbaycanda özəl reabilitasiya mərkəzlərinə nəzarət və standartlar

**Standartların hüquqi əsasları**

Azərbaycanda Nazirlər Kabineti "Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün Standartlar"ı təsdiqləyib. Bu sənəd reabilitasiya mərkəzlərinin fəaliyyətinin hansı mərhələlərdən ibarət olmasını, göstərilən xidmətin strukturunu və keyfiyyət meyarlarını müəyyən edir. Standartlar reabilitasiya prosesini — müayinə, ilkin qiymətləndirmə, fərdi proqramın hazırlanması, reabilitasiyanın gedişatı və nəticələrin qiymətləndirilməsini əhatə edir.

## Keyfiyyət və mərhələlər

Reabilitasiya tədbirləri kompleks yanaşma ilə həyata keçirilməlidir: tibbi reabilitasiya, peşə-ixtisas reabilitasiya, sosial bacarıqların inkişafı və psixoloji-pedaqoji dəstək daxil olmaqla geniş spektrdə xidmətlər mövcuddur. Bu mərhələlər standartlar tərəfindən konkret nəticə yönümlü şəkildə təsbit olunur və reabilitasiya müəssisəsinin funksional tələblərini müəyyən edir.

## Dövlət nəzarəti və real vəziyyət

Dövlət tərəfindən rəsmi özəl reabilitasiya mərkəzlərinə birbaşa nəzarət mexanizmi hələ tam formalaşmayıb — Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi yalnız öz tabeliyində olan reabilitasiya müəssisələrində monitorinqlər aparır, lakin özəl sahə üçün spesifik nəzarət mexanizmi yoxdur. Özəl reabilitasiya mərkəzlərində xəstələrin hüquqları və xidmət keyfiyyəti ilə bağlı narahatlıqların ortaya çıxması, bəzi hallarda pasient hüquqlarının qorunması və terapiya növlərinin effektivliyi baxımından dövlət nəzarətinin gücləndirilməsi zərurəti barədə mütəxəssislər tərəfindən fikirlər səsləndirilir.

## Dünya təcrübəsi: tənzimləmə, standart və akkreditasiya

**Beynəlxalq akkreditasiya orqanları**

Dünyada reabilitasiya xidmətlərinin keyfiyyətini təmin etmək üçün xüsusi akkreditasiya orqanları fəaliyyət göstərir. Məsələn, CARF International (Commission on Accreditation of Rehabilitation Facilities) qlobal səviyyədə reabilitasiya və digər sağlamlıq xidmətləri üçün beynəlxalq standartlar hazırlayan və sertifikat verən qeyri-kommersiya təşkilatıdır. Bu akkreditasiya müəssisələrdə sabit keyfiyyət standartları, xidmətin nəticələrinin ölçülməsi, müştəri məmnunluğu və yaxşı idarəetmə kimi sahələri əhatə edir.

## Avropa modellərinə baxış

Avropada, məsələn, EQUASS (European Quality in Social Services) kimi xüsusi sistemlər vasitəsilə sosial və reabilitasiya xidmətləri üçün keyfiyyət sertifikatları verilir. Bu sertifikatlar müəssisələrin xidmətin keyfiyyəti, davamlı təkmilləşdirmə və istifadəçi mərkəzli yanaşma prinsiplərinə uyğun olduğunu təsdiqləyir. Bir çox inkişaf etmiş ölkələrdə insan hüquqlarını, sosial xidmətləri və səhiyyə sistemini tənzimləyən qanunlar reabilitasiya xidmətinə çıxışı hüquq kimi qəbul edir. Azərbaycan özəl reabilitasiya mərkəzləri üçün Nazirlər Kabinetinin təsdiqlədiyi standartları tətbiq edir və bu standartlar reabilitasiya prosesinin əsas mərhələlərini müəyyən edir. Lakin dövlət nəzarəti və akkreditasiya sistemi hazırda bir çox digər ölkələrdə olduğu kimi inkişaf etməyib. Dünya təcrübəsində isə lisenziyalaşdırma, akkreditasiya və keyfiyyət monitorinqi reabilitasiya mərkəzlərinin fəaliyyətinin ayrılmaz hissəsidir və bu, xidmətlərin təhlükəsizliyi, səmərəliliyi və şəffaflığı baxımından mühüm rol oynayır.

***Ayşən Vəli***

# "Ailə quranlar azalır, aliment və mal-mülk davası çoxalır..."



***"Son illərdə Azərbaycanda ailə institutunun bütün ənənə prinsipləri tamamilə məhv edilmək üzrədir. Bu xalqa mənsub olan, min illərdir yol gələn ailə dəyərləri müasir informasiya cəmiyyətində öz yerini tamam başqa adətlərə, hətta cəmiyyəti fəlakətə sürükləyən yeni qaydalara verməkdədir: Bir vaxtlar böyük məsləhəti ilə, kəbin-nikahla qurulan ailə dəyərləri, tarixə qovuşan arxiv sənədinə çevrilir.***

Artıq müasir gənclik nəslini-kökünü tanımadığı, real həyatda ünsiyyətdə olmadığı qızlarla tik-tok səhifələrində tanış olub dərhal da nikah masasına otururlar."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist - ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, hətta dəhşətlisi odur ki, artıq nikah masasının özü də toz basmış və unudulmuş köhnəliyə çevrilir. Məsələ burasındadır ki, yaşı 25-35 arası olan bir sıra qadınlar yalnız qeyri-rəsmi ünsiyyətə üstünlük verir, nikahsız yaşayır və sevgililərinin razılığı olmadan nikahdankənar uşaqlar dünyaya gətirirlər.

"Bu gün Azərbaycan şou-biznesində nikahsız münasibətlərdən uşağ dünyaya gətirən müğənnilərin sayı payız göbələyi kimi artır. Onlar hətta bunu çəkinmədən dilə gətirir, nəzarətsiz sosial proqramlarda, efirlərdə bu xoşagəlməz durumu reklam da edirlər. Bu tipli qadınların efirlərdə və tik-tok səhifələrində reklamından sonra Azərbaycanda ailəsini atıb özünə yeni, varlı ər axtaran, "müstəqil" həyat qurmaq istəyən, xüsusilə nikahdankənar uşaq dünyaya gətirən qadınlar cəmiyyəti başına götürüb gedir. Nikahdankənar uşaq dünya gətirəndən sonra isə başlayır atalıq təyini, mal-mülk davası. Əslində, onların əsas məqsədi uşaq dünyaya gətirmək, heç bir ailə məsuliyyətini üzərinə götürməmək və sonda da aliment və əmlak qoparıb "müstəqil həyat" sürməkdir. Son bir neçə ildir daha çox dəb xarakteri daşıyan bu qorxunc və arzuolunmaz trend Azərbaycan cəmiyyətini daha biabırçı sosial-mənəvi fəlakətə sürükləyir. Cəmi 10-15 ildən sonra biz bu ölkədə nikahsız və atası müəyyən olunmamış nəsillərlə üz-üzə qalacayıq. Bu, yenilik deyil, bu, milli genefonumuz üçün ilkin qorxunc başlanğıcdır".

***Ayşən Vəli***



Mətanət Məmmədova

# Danışarsan, cavabını alarsan...

***Müasir gənclərin bizi bəzən qınaması, vallah, heç də yersiz deyil. Son zamanlar onların üstünə çox gedirik, bəzi məsələlərdə çox deyinirik, onları tənbeh edirik. Onlar da bizə "siz geridə qalmısınız, bu, belə deyil, bizim bildiyimiz, etdiyimiz kimidir",-deyirlər.***

Məsələn, bəzi gənclərimiz var ki, ictimai yerlərdə ucadan danışırlar, deyib-gülürlər. Biz də onları görəndə cin atına minirik. İstər-istəməz onlar barədə danışanda, qınayanda, cavabımızı belə alırıq ki, ay yazıqlar, müasir dövrdür, indi alçaqdan yox, ucadan danışmaq lazımdır ki, hər kəs eşitsin, gülsün, kefi açılsın. Bir də ki, ucadan danışmaq, gülmək dəbdir.

Tez-tez yolda, metroda, avtobusda, mağazada ağzında saqqız şövqlə çeynəyən gənclər görürsən. Yadına düşür ki, valideynlərimiz deyərdi, ictimai yerdə saqqız çeynəmək mədəniyyətsizlikdir, insanlara qarşı hörmətsizlikdir. İstəyirsən ki, bu tövsiyəni bəzi gənclərə edəsən. Qayıdıb nə desələr yaxşıdır? Saqqız çeynəmək müasirlikdir. İndi artıq sizin dövrünüz deyil. Saqqız təravətli nəfəsdir... Həm də dəbdir, məxsusilikdir. Bu cavabı eşidəndə nə edirsən, matın-qutun quruyur.

Hazırkı cəmiyyətin müasirliklərindən biri də bəzi gənclərimizin geyimləridir ki, qızların yay-qış göbəkləri bayırdadır. Deyirsən, ay bala, bu nə geyimdir, axı sənə soyuq dəyər, xəstə olarsan, sabah bir qapını açıb gəlin gedəcəksən, ana olacaqsan. Nə üçün qorxmursan ki, səni bu geyimlə bəyənən olmaz? Nə desələr yaxşıdır? Cəhənnəmə bəyənsin, gora bəyənsinlər. İndi belə geyim bütün dünyada dəbdir. Bu, mənim tərzimdir, kim məni bəyənərsə, bu geyimlə də qəbul etməlidir.

Aldın cavabını, gözüm kəllənəmi çıxdı?

Bir də baxırsan ki, qarşıdan bir dəstə gənc oğlan gəlir. Birinin şalvarının dizi yoxdur, birinin saqqalı sinəsində, birinin saçı qalxıb göyün yeddinci qatına, o birinin saçı bir neçə rəngdədir, o birinin corabının bir tayı bir rəng, o biri tayı başqa rəngdir. Baxırsanbaxırsan, vallah, bilmirsən güləsən, ağlayasan, nə edəsən. Yeri gələndə söhbət açıb deyirsən ki, ay bala, kişinin kişi geyimi olar. O dizi yox şalvarı kişi əyninə geyinər məgər? O qadın saçı ilə kişi bayıra çıxar? Niyə o saçları qaydasında kəsdirmirsən? O corabı geyinəndə görmürsən ki, taykeşdir? Və yaxud da o saçını niyə çəhrayı rəngə boyamısan?

Hə, bunları deyib öyüd-nəsihət verəndə adamın üzünə elə qabarırlar ki, yerindəcə donub qalırsan. Cavabları isə bu olur ki, ay yazıq, sən keçmişdən gəlmisən. Biz isə bu gündə yaşayırıq. Buğunun dəbi budur. Həm də ki, kim istəyir cırıq şalvar geyinməsin, corabını taykeş yox, cüt geyinsin, saçını göyə qaldırmasın, yerə endirsin, rəngləməsin, öz rəngində saxlasın, onlardan bizə nə? Bu, bizim tərzimizdir. Sən də udquna-udquna qalırsan, söz tapıb deyə bilmirsən. Bir də ki, axı nə deyəsən? Səni elə yerində oturdurlar ki, cınqırın da çıxmır.

Hə, elə qızlarımız var ki, əyinlərindəki bir qarışdan da qısa ətəklərini görəndə, deyirsən ki, İlahi, yəqin bunlar evdən çıxanda anaların başı mətbəxdə iş-gücə qarışıbmış, yoxsa... Fikirləşirsən ki, mən də olum bunun anası, nə olar, gəncdir, başa salım, düz yol göstərim. Deyirsən ki, qızım, bu ətəyin bir azacıq uzun olsa, sənə çox gözəl yaraşar. Qayıdıb sənə nə desə, yaxşıdır? "Sən get öz qızına yol göstər. Mən evdən çıxanda görənim var. Bir də axı sən nə bilirsən, müasirlik nədir, dəb nədir? Sizlər XX əsrdə qalmısınız, indi XXI əsrdir". Deyirsən ki, dilim, dilim-dilim olasan, fərağat dayan da. Düz deyir də, anası var, evdən çıxanda görməyib məgər? Görməyib də özü bilər, görərdi də... Heç nə, ta nə edəsən ki? Nə də etməlisən ki? Kor ol, görmə, kar ol, eşitmə, lal ol, danışma. Danışarsan, cavabını alarsan...

# Bütöv Azərbaycanın üçrəngli Bayrağı

## 1991-ci il fevralın 5-də milli Bayrağımız dalğalandı

***Ucadan uca üçrəngli Azərbaycan bayrağı. Qürurlu, əzəmətli Azərbaycan Bayrağı. Hər zaman vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalanan Azərbaycan bayrağına bu gün vətən torpağının hər bir yeri bürünüb. Bu bayraq müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvoludur. Uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçib.***

Bu bayrağı belə qüdrətli edən, dalğalandıran Azərbaycan xalqının Böyük Lideri, Prezidenti var. Bayraq bir dövlətin, millətin şərəf və ləyaqətinin ifadəsi milli suverenliyin simvolu, qürur mənbəyidir. Bayrağımız Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağını yüksək qiymətləndirərək "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" – deyə bildirmişdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir".

Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi, milli suverenliyin simvolu, qürur mənbəyimiz olan Azərbaycan Bayrağı milli həmrəyliyimizin, vahid məfkurə ətrafında sıx birləşməyimizin başlıca amillərindən biridir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və



iradəsinin ifadəsi kimi dalğalanmağa başladı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu.

Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üç rəngli bayrağı ikinci dəfə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə Azərbaycan Bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Düz 71 il sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən zəkası və əzmi ilə Naxçıvanda dalğalandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edildi. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qəraran qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

### MİLLİ SUVERENLİYİN SİMVOLU

Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanda siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideyalara bağlılığı həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da bu yüksək ehtiramın ifadəsidir. Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş əzəli, tarixi torpaqlarda əbədi olaraq dalğalanacaq.

15 oktyabr 2023-cü il Xankəndi, Xocavənd, Ağdərə və Xocalının Azərbaycanın şəhərləri kimi bayrağımıza büründüyü gün kimi təqvimə yazıldı.

"Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək". Bu sözləri Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində bildirib: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq...". Dövlət başçısı vurğulayıb ki, biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər". Bəli, yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ədalət qalib gəldi: Azərbaycan müharibə cinayətlərinə hüquqi qiymət verdi

***30 işğal altında qalan Vətən torpaqlarının azadlığı uğrunda qonşu düşmənlə mübarizə aparan, haqq səsini dünyaya yayan və onu ədalətə çağıran Azərbaycan 2020-ci ildən başlayaraq müasir tarixində misli olmayan mərhələlərdən keçir. Budur, ölkəmiz təkcə öz ərazi bütövlüyünü və tam suverenliyini bərpa etmədi, eyni zamanda Azərbaycan xalqına qarşı insanlıq əleyhinə və müharibə cinayətləri törətməkdə ittiham olunan şəxslərin ədalət mühakiməsi qarşısına çıxarılmasına nail oldu. Bu, dövlətin gücünün, hüquqa sadiqliyinin və ədalət prinsipinin bariz təzahürüdür.***

Bu tarixi nailiyyətin mərkəzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qəti iradəsi və prinsipial mövqeyi dayanır. Dövlət başçısı hələ müharibədən əvvəl Xocalı soyqırımı və digər ağır cinayətləri törədənlərin mütləq şəkildə məsuliyyətə cəlb ediləcəyini, günahsız qurbanların qanının yerdə qalmayacağını bəyan etmişdi: "Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq". Bu, bir faktdır ki, Prezident hər zaman xalq qarşısında verdiyi sözə sadiq qalıb.

### Bu gün həmin vədin real nəticələrini görürük

2020-ci ildə 44 günlük müharibədə və 2023-cü ildə birgünlük lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan çoxsaylı təzyiqlərə baxmayaraq, heç bir xarici hərbi dəstək olmadan öz ərazi bütövlüyünü bərpa etdi və paralel şəkildə müharibə cinayətkarlarının mühakiməsinə nail olunacağını bəyan etdi. Çünki bu xalq 30 ildə məhz müharibə cinayətkarlarının çoxsaylı terror hadisələrinə, soyqırımına, insanlığa qarşı dəhşətli cinayətlərinə məruz qalmışdı. Bu səbəbdən də xalqın böyük Zəfəri yalnız hərbi qələbə deyil, eyni zamanda hüquqi və mənəvi qələbə idi. Ona görə ki, xalq dövlət başçısının sərkərdəliyi ilə torpaqların azad olunması ilə bərabər, onun uzun illər boyu saysız cinayət törədənləri də mühakimə kürsüsünə çıxaracağına əmin idi. Dövlət öz vətəndaşlarına münasibətdə ədaləti məhz öz gücü və qətiyyəti hesabına təmin etdi.



Məhkəmə prosesi ilə əlaqədar Azərbaycan xaricdən ciddi və əsassız siyasi təzyiqlərlə üzləşsə də, bu amil Prezidentin prinsipial mövqeyinə zərrə qədər təsir göstərmədi. Bu, Azərbaycanın suveren qərarvermə hüququnun və müstəqil siyasətinin növbəti sübutu oldu. İnsanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin ədalət mühakiməsinə cəlb edilməsi ədalətin ali formasıdır və münaqişələrin ədalətli həlli üçün ən düzgün model hesab edilməlidir. Təəssüf ki, dünya təcrübəsində çoxsaylı münaqişələr bitsə də, minlərlə mülki şəxsin qətlində əli olan cinayətkarlar məsuliyyətdən kənarda qalır. Bu isə müharibələrin natamam və ədalətsiz həlli deməkdir.

### Məhkəmə sübut etdi

Açıq keçirilən məhkəmə prosesində səsləndirilən ifadələr, təqdim olunan faktlar Ermənistan hakimiyyətinin və onun silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərdə birbaşa rol oynadığını açıq şəkildə sübut etdi. Bu faktlar Ermənistan dövlətinin işğala, soyqırımına, urbisid və ekosid siyasətinə görə məsuliyyət daşıdığını bir daha təsdiqlədi.

Təqsirləndirilən şəxslərin etirafları xüsusilə diqqət çəkicidir. L.Mnatsakanyanın ifadəsi ilə aydın oldu ki, qondarma rejimin ordusu heç vaxt müstəqil hərbi qüvvə olmayıb, Ermənistan ordusunun ən böyük hərbi birləşməsi kimi fəaliyyət göstərib. Qondarma rejimdə yüksək hərbi vəzifələrə təyinatlar İrəvanda təsdiqlənib, təminat və idarəetmə Ermənistan ordusunun daxilində həyata keçirilib. Eyni zamanda A.Arutyunyanın hərbi xidmətdə olması, B.Saakyanın Şuşanın işğalında iştirakı barədə yayımlanan kadrlar Ermənistanın birbaşa iştirakını ifşa etdi.

Məhkəmə prosesi faktiki olaraq sübut etdi ki, Ermənistan işğalçılıq siyasətini gizlətmək məqsədilə qondarma rejim yaradıb və həmin rejimin rəhbərləri bu siyasətin Qarabağdakı əsas icraçıları olublar. Zərərçəkmişlərin ifadələri, maddi sübutlar və etiraflar işğalın bütün məsuliyyətini Ermənistanın üzərinə qoydu. Bu məhkəmə təkcə hüquqi proses deyil, həm də tarixi ədalətin bərpasıdır. Azərbaycan bir daha sübut etdi ki, müharibə cinayətləri zaman aşımına məruz qalmır və ədalət gec də olsa, öz yerini tapır. Və bir də onu sübut etdi ki, qarşıya qoyulan məqsəd və prinsipial mövqe istənilən ədalətsizliyə qalib gələ bilir.

***Mətanət Məmmədova***

# Eko-hədə: ABŞ iqlim danışıqlarından niyə uzaqlaşır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***İndiyə qədər aparılan ən əhatəli qlobal ətraf mühit qiymətləndirməsi dünya ölkələrinin qarşısına belə bir öhdəlik qoyur: 1 milyondan çox bitki və heyvan növünün məhv olma təhlükəsi yaradan iqlim dəyişikliyi və biomüxtəlifliyin itirilməsi də daxil olmaqla ən aktual ətraf mühit problemlərini həll etmək üçün hamılıqla çalışmaq lazımdır.***



Lakin dünya ölkələrini qalıq yanacağın istifadəsindən çəkindirən Amerika özü bu danışıqlarda iştirakdan imtina edir, beynəlxalq ekoloji sazişlərdən geri çəkilir. BMT Ətraf Mühit Assambleyası ötən ay 83 ölkədən olan təxminən 300 alim tərəfindən yeni hesabat hazırladı. BMT Ətraf Mühit Proqramının Qlobal Ətraf Mühit Baxışının müəllifləri bildiriblər ki, torpaqların deqradasiyası və çirklənməsi də daxil olmaqla, bütün ekoloji məsələlər bir-biri ilə ayrılmaz şəkildə bağlıdır. Artan xərclər və qazıntı yanacaqlarından uzaqlaşmaq, davamlı kənd təsərrüfatı təcrübələrini təşviq etmək, çirklənmənin qarşısını almaq və tullantıları məhdudlaşdırmaq üçün maliyyə stimullarını əhatə edən həll yolları tapmaq zəruridir.

Britaniyalı iqlim alimi Bob Vatson deyib: "Biomüxtəliflik, torpaqların deqradasiyası və çirklənməsi haqqında düşünmədən iqlim dəyişikliyi barədə düşünə bilməzsiniz. İqlim dəyişikliyinin və çirklənmənin nəticələri barədə düşünmədən biomüxtəlifliyin itirilməsi haqqında düşünə bilməzsiniz."

Mütəxəssislər xəbərdarlıq edibl ər ki, dünya iqlim dəyişikliyi, canlı növlər, torpaq itkisi və digər zərərlər baxımından dönüş nöqtəsinə yaxınlaşır. Lakin onlar bildiriblər ki, bu problemlərin həlli üçün səylər əsasən fərdi razılaşmalar vasitəsilə həyata keçirilib və bu da demək olar ki, kifayət qədər irəliləyiş əldə etməyib. Əvəzində, onlar hökumətin hər bir sahəsini, maliyyə sektorunu, sənayeni və vətəndaşları əhatə edən yanaşmanı və təbii sərvətlərin məhdud olduğunu qəbul edən dairəvi iqtisadiyyatı müdafiə edirlər. "Dediyimiz odur ki, biz daha dayanıqlı ola bilərik, lakin bu sistemləri dəyişdirmək üçün misli görünməmiş dəyişikliklər tələb olunacaq. Bu, indi sürətlə edilməlidir, çünki vaxtımız tükənir." - deyə Vatson bildirib.

Hesabatda, dünya hazırkı yolunda davam edərsə, gələcəyin pis olacağı açıqca göstərilir. Bildirilir ki, istiliyi saxlayan istixana qazlarının tullantıları - əsasən kömür, qaz və neft kimi qalıq yanacaqların yandırılmasına görə ölkələr arasında tullantıların azaldılması üçün onilliklər boyu aparılan danışıqlara baxmayaraq, 2024-cü ildə yüksək həddə çatdı. On il əvvəl, iqlim dəyişikliyinin ən fəlakətli təsirlərindən qaçmaq və ya azaltmaq üçün sənayeləşmədən əvvəlki dövrlərdən bəri gələcək istiləşməni 1,5 dərəcə Selsi səviyyəsindən çox olmayan səviyyədə məhdudlaşdırmaq məqsədi ilə təxminən 200 ölkə Paris Sazişini imzaladı. Lakin bu gözlənilən effekti vermədi. "Hazırkı trayektoriyada iqlim 2100-cü ilə qədər 2,4 dərəcə Selsi istiləşə bilər" deyə Uotson bildirib.

Alimlər, iqlim dəyişikliyinin daha şiddətli fırtınalar, quraqlıq, isti hava və meşə yanğınları da daxil olmaqla daha ekstremal hava şəraitinə səbəb olduğunu bildirirlər. Hesabatda yer alan digər çətinliklər arasında qlobal miqyasda torpaq sahəsi ilə bağlıdır. Bildirilir ki, dünyada torpaqların 40%-ə qədəri deqradasiyaya uğrayır və çirklənmə ildə təxminən 9 milyon insanın ölümünə səbəb olur. Hesabatda deyilir ki, 2050-ci ilə qədər xalis sıfır emissiya məqsədinə çatmaq və biomüxtəlifliyi bərpa etmək üçün hər il qlobal investisiyaya təxminən 8 trilyon dollar lazımdır. Lakin 2050-ci ildən başlayaraq iqtisadi fayda xərclərdən çox olacaq və 2070-ci ilə qədər ildə 20 trilyon dollara, sonra isə ildə 100 trilyon dollara çatacaq.

Hesabatın təcili tədbir görülməsi barədə çağırışına baxmayaraq, alimlər deyirlər ki, beynəlxalq əməkdaşlıq heç də zəmanətli deyil. Xüsusən də ABŞ prezidenti Donald Tramp bir çox müzakirələrdə iştirak etməkdən imtina etdiyi üçün əməkdaşlıqlar getdikcə zəifləyir. ABŞ-ı Paris Sazişindən çıxaran Tramp iqlim dəyişikliyini saxtakarlıq adlandırıb. O, qalıq yanacaq istifadəsini təşviq edib, bərpa olunan enerji üçün icazələri ləğv edib və avtomobil yanacağının səmərəliliyi standartlarından imtina edir. "Beynəlxalq tədbirlər və sazişlər getdikcə daha da çətinləşir", - deyə Vatson bildirib və qeyd edib ki, bu il Braziliyada keçirilən BMT-nin iqlim konfransı istixana qazı tullantılarının azaldılması və digər məsələlər üzrə daha güclü öhdəliklərlə lazım olan istiqamətdə irəliləyə bilmədi.

Qeyd edək ki, bu yay Cenevrədə plastik çirklənmə ilə bağlı müqavilə üzrə danışıqlar razılaşma olmadan başa çatdı, baxmayaraq ki, ilin əvvəlində keçirilən BMT konfransı qlobal biomüxtəlifliyin qorunması üçün maliyyələşdirmə öhdəlikləri götürmüşdü. Vatson bildirib ki, ABŞ, Nayrobidə keçirilən hökumətlərarası görüşdə iştirak etməyib, lakin son gün müzakirələrə qoşulub və hesabatdakı heç bir şeylə razılaşmadıqlarını bildirib. Vatson deyib: "Bəzi ölkələr deyə bilər ki, ABŞ bu istiqamətdə heç nə etmək istəmirsə, biz niyə etməliyik?".

***Lalə Mehralı***

# Böyük güclər üçün heç bir insani dəyər yoxdur



*Epşteyn işi ilə ABŞ və Avropanın aparıcı simalarının iyrənc əməl sahibləri olduğu bir daha dünyaya nümayiş etdirildi*

Dünyanı cənginə alan müharibələr, münaqişələr fonunda diqqətçəkən və insanın canına üşütmə salan hadisə amerikalı maliyyəçi Ceffri Epşteyn işində əks olunan əxlaqsız, rüsvayçı faktların açıqlanmasıdır. Bu faktlar bir daha təsdiqlədi ki, ABŞ və Avropa üçün heç bir insani dəyər yoxdur. Onların hər bir rəhbər şəxsi, siyasətçisi, iş adamı, hətta din xadimləri manyakdılar, insan ətinə susamış satanistlərdir. ABŞ Ədliyyə Nazirliyi 30 yanvar 2026-cı il tarixində "Epşteyn sənədlərinin şəffaflığı aktı" çərçivəsində 3,5 milyondan çox sənəd, 2 000-dən çox video və 180 000-dən çox şəkli ictimaiyyətə açıqlayıb. Yayımlanan 3,5 milyon səhifəlik arxivdə demək olar ki, ABŞ-ın və Avropanın bütün hökumət və dövlət başçılarının, konqresmenlərinin, milyarderlərin adları keçir. Bil Klinton, İlon Mask, Bill Qeyts, Donald Tramp, Barak Obama, Böyük Britaniyanın keçmiş şahzadəsi Endryu Mindsorin, eləcə də Vatikanın dini rəhbəri Papanın və digərlərini adları Epşteynlə əlaqələrinə dair müxtəlif qeydlərdə, yazışmalarda və videogörüntülərdə əks olunur. ABŞ Ədliyyə Nazirliyinin internetdə toplu şəkildə paylaşdığı bu sənədlər haradan gəlir və bəzən onların istintaqla necə əlaqəli olduğunu və ya necə əldə edildiyini anlamaq mümkün deyil? Sadəcə ona qənaətə gəlmək olar ki, Epişteyin ABŞ-ın, eləcə də İsrailini xüsusi xidmət orqanları ilə geniş əlaqələri əməkdaşlıq münasibətləri olub. Zaman-zaman xüsusi xidmət orqanlarının sifarişləri əsasında Epişteyin müxtəlif vəzifə mənsublarını, iş adamlarını müxtəlif rüsvayedici formalarda şəkillərini çəkib və ya videolara alıb. Diqqətçəkən məqam ondan ibarətdir ki, ABŞ cəmiyyətinin üzqarası, Avropanın başını yerə soxan Epişteyn işi ilə bağlı ən xırda detallar ABŞ-ın və Avropanın hüquq-mühafizə orqanlarına məlum olub. Lakin həmin iddialar böyük güclərin əli ilə sıradan çıxarılıb. İddiaçılar isə qısa müddət sonra ya dəlixanalar atılıb, ya da öldürülüblər . Budur ABŞ-ın demokratiyasıdır, Avropanın insan hüquqlarına dəyəri. Belə utancverici hadisəyə görə ABŞ vətəndaşları yekdilliklə dünya insanlığından üzr istəməli, təşkilatçılar isə dərhal məhkəmə qarşısına çıxarılaraq ən ağır cəzaya layiq görülməlidirlər.

### ABŞ Baş prokurorunun ziddiyyətli açıqlaması

ABŞ Baş prokuroru Pam Bondi dövləti və xalqı adından dünya ictimaiyyətindən üzr istəməkdənsə, absurd iddia ilə çıxış edir. Bildirir ki, "bugünkü açıqlama Amerika xalqı üçün şəffaflığı və qanuna riayət olunmasını təmin etmək üçün sənədlərin müəyyən edilməsi və nəzərdən keçirilməsi üzrə çox əhatəli bir prosesin başa çatmasını qeyd edir". Baş prokurorun ironiya ilə qarşılanan açıqlaması sənədlərdə ABŞ-ın nüfuzlu şəxslərinin adlarının keçməsidir.

Epşteyn 2019-cu ilin avqust ayında Nyu-Yorkdakı Metropolitan İslah Mərkəzindəki kamerasında intihar edib. Təbii ki, bu ölüm halı da şübhəlidir. Qırmızı turp kimi bir məxluq necə ola bilər ki, birdən-birə cəhənnəmlik olur. Onu öldürüblər. Aradan götürməklə izləri silməyə çalışıblar. Kimlərdir əsas satanistlər, uşaq zorlayan, insan ətinə susamış manyaklar. BBC News Epşteynin sənədlərində adıçəkilən görkəmli şəxslərin qısa icmalını tərtib edib: Əvvəllər Britaniya şahzadəsi Endryu kimi tanınan Endryu Mauntbatten-Vindzor Epşteynlə dostluğuna görə illərdir ki, nəzarət altındadır. Epşteynin ən məşhur ittihamçısı Virciniya Cuffre, maliyyəçinin onu 17 yaşında olanda Mauntbatten-Vindzorla cinsi əlaqəyə məcbur etdiyini iddia edir. Araşdırmalar fərli məsələlər ortaya çıxartdı. Bundan sonra 2025-ci ilin oktyabr ayında Kral III Çarlz, Endryu ilə Epşteyn əlaqələri ilə bağlı əlavə açıqlamalardan sonra 65 yaşlı qardaşını Şahzadə və York Hersoqu titulları da daxil olmaqla kral titullarından məhrum etdi.

Ceffri Epşteyn və Donald Tramp Floridada qonşu olublar. Donald Trampın Mar-a-Lago malikanəsi maliyyəçinin malikanəsindən, sözün əsl mənasında, on dəqiqəlik məsafədədir. Onlar bir müddət dost olublar. Onların birlikdə əyləncələrdə çəkdirdikləri şəkillər var və Tramp maqnatın şəxsi təyyarəsindən bir neçə dəfə istifadə edib. 2004-cü ildə aralarında mübahisə yaranıb. Bir nəzəriyyəyə görə, Epşteynin Trampın qolf klubunun işçilərini "masajçı" kimi işləməyə cəlb etməsi ilə bağlı olub. Başqa bir nəzəriyyə isə bunun Donaldın sonda ələ keçirdiyi Palm Biçdəki gəlirli torpaq sahəsi uğrunda dava olmasıdır.Trampın sözlərinə görə, dostluqları zamanı o, Epşteynin cinayətlərindən heç nə bilmirdi; mübahisədən sonra onlar heç danışmayıblar. Hazırkı sənədlər toplusuna 13 yaşında (1994-cü ildə) Tramp tərəfindən təcavüzə məruz qaldığını iddia edən bir qızın 2016-cı ildə anonim ifadəsi daxildir. Bu, maliyyəçinin Nyu-Yorkdakı evində baş verib. Qız hətta detalları da verib: Donald guya onu dişləyib. Lakin sonra o, iddiasını geri götürüb və sanki unudulmağa başlayıb.

### 2012 və 2013-cü illərdə İlon Maskın Epşteynlə yazışması

Tesla və SpaceX şirkətinin rəhbəri Maskın adı sənədlərdə ən azı bir neçə dəfə qeyd olunur. 2012 və 2013-cü illərdə İlon Mask Epşteynlə yazışıb və maliyyəçinin Karib dənizindəki şəxsi adasında keçirilən əyləncələrdə iştirak etmək imkanını müzakirə edib. 2012-ci ilin noyabr ayında göndərilən bir elektron poçtda o, Epşteyndən "adamızdakı ən vəhşi əyləncənin" nə vaxt planlaşdırıldığını soruşub və ovaxtkı həyat yoldaşı Talulah Rayli ilə birlikdə iştirak etməyi planlaşdırdığını bildirib. 2012-ci ilin dekabr ayında Epşteynə göndərilən başqa bir elektron poçtda milyarder maliyyəçinin "dincəlmək" lazım olduğu üçün hər hansı bir əyləncə planlaşdırıb-planlaşdırmadığını soruşub..

Dosyedə Epşteynin Nyu-Yorkdakı evində saxladığı Klinton və digər tanınmış şəxslərin fotoşəkilləri var. Bütün bunlar onu deməyə əsas verir ki, dünyanın aparıcı dövlətlərinin başçıları, iri maqnatlar, tanınmış ictimai xadimlər əxlaqsızlardan, uşaq qatillərindən, bir sözlə, manyaklardan ibarətdilər. Məhz bu cür tərbiyə sahibləri dünyada insan ölümlərinə, fəlakətlərə, faciələrə seyrçi yanaşırlar. Əksər hallarda isə kütləvi insan qətliamlarının, ölkələrin viran olmasını, şəhər və kəndlərin xarabazarlıqlara çevrilməsinin əsas təşkilatçıları olurlar. Belə manyaklardan insanlığı qorumaq çətindir, lakin birlik və bərabərliklə onların axırına çıxmaq mümkündür.

***İLHAM ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
6 fevral
2026-cı il

# Gömrükdə “ilişən” bağlamalar: günah kimdədir?



ARAŞDIRMA

***Bu gün e-ticarət dünyada sürətlə yayılıb və insanlar Temu, Trendyol, Amazon, Shein, eBay kimi beynəlxalq platformalardan tez-tez alış-veriş edirlər. Lakin belə sifarişlərin çatdırılması birbaşa yerli mağazada aldığınız məhsul qədər sadə olmur - çünki onlar uzaq ölkədən gəlib, fərqli logistika, gömrük və daşıyıcı şəbəkələrindən keçməlidir. Bu prosesdə gecikmələr təbii olaraq baş verə bilər. SİA mövzu ilə bağlı araşdırma edib. Aşağıda əsas səbəblər ətraflı izah olunub.***

## Xaricdən sifarişlərin gecikmə səbəbləri gömrük rüsumu və gömrük prosedurları

Hər bir beynəlxalq bağlama əvvəlcə ölkəyə daxil olur və gömrük yoxlamasından keçməlidir. Bu mərhələdə sənədlər düzgün olmazsa, vergi və rüsumlar ödənməsə və ya mallar təsadüfi yoxlamaya təsadüf etsə - bağlama gömrükdə ilişə bilər. Gömrükdə gecikmələr adətən ən çox qarşılaşılan problemdir və çox vaxt həftələrlə davam edə bilər.

## Sənədləşmə və deklarasiya səhvləri

Xarici satışdan gələn bağlamalarda malların təsviri, dəyəri, HS kodu və digər sənədlər düzgün göstərilməlidir. Səhv və ya natamam sənədlər gömrük tərəfindən saxta və ya təftişə ehtiyac olan məhsul kimi qiymətləndirilə bilər, bu da çatdırılmada gecikməyə səbəb olur.

## Mövsümi həcmlər və artım dövrləri

Qara Cümə, Yeni il, kampaniyalar kimi dövrlərdə sifarişlər güclü şəkildə artır. Məhsullar göndərən tərəfdə və tranzit logistikasında sıxlıq yaranır və paketlərin işlənməsi gecikir.

## Hava şəraiti və logistika problemləri

Fırtına, qar, sel, hava limanlarının bağlanması kimi təbiət hadisələri səbəbindən təyyarə və gəmi dövriyyəsi dayana bilər. Bu şərtlər çatdırılma prosesində gecikməyə səbəb olur.

## Daşıma şəbəkəsinin keçid hissələri

Xaricdən sifarişlər çox vaxt bir neçə dəst-də göndərilir — fərqli anbardan ayrılan hissələr müxtəlif vaxtlarda gəlir. Bəzən bir paket gömrüyə girərkən digəri hələ hələ daşınır.

## Son-mil xidmət(Last-Mile Delivery) sürəti

Ölkənizə daxil olduqdan sonra bağlama yerli kuryer xidmətinə verilir. Yerli postal xidmətin iş həcmi, işçi çatışmazlığı, ünvan səhvləri və s. gecikmələrə yol aça bilər.

## Temu və trendyol üzrə xüsusi faktorlar Temu (Çin əsaslı platforma)

Ən çox gömrük gecikmələri və sənəd yoxlaması səbəbindən gecikmə halları olur. Tracking informasiya sistemi bəzən bir neçə gün yenilənməyə bilər, amma paket hələ də hərəkətdə ola bilər. Böyük kampaniyalar zamanı sifariş həcmi çox artır, buna görə çatdırılma planlanandan gec ola bilər.

## Trendyol

Azərbaycana və digər ölkələrə çatdırılan sifarişlərdə gömrük prosesi qanuna uyğun şəkildə gedir və yalnız bu mərhələ gecikmələrə səbəb ola bilər.

Trendyol bağlamaları da bazen yükün göndərilməsində, yerli logistika və kuryer xidmətində gecikmələrə rast gələ bilər.

Dünya Təcrübəsində Bənzər Problemlər

ABŞ və Avropa kimi ölkələrdə də “düşük dəyərli bağlamalar” üçün gömrük rüsumu və sənəd tələblərinin dəyişməsi nəticəsində çatdırılma müddəti uzanır – bu, global logistika problemlərinə çevrilib. Bir çox ölkədə gömrük qaydaları sərtləşdirildikcə, çekilmələr və yoxlamalar artır, bu da qat-qat daha çox gecikmələrə gətirib çıxarır.

Xaricdən sifarişlərin gecikməsinin əsas səbəbləri bunlardır:

-Gömrük yoxlamaları və sənədləşmə
-Mövsümi həcmlər və logistika sıxlığı
-Hava və təbiət hadisələri
-Son-mil çatdırma problemləri
-Sifarişlərin bir neçə paketlə göndərilməsi
-Platforma və daşıyıcı tənzimləmələri

Bu səbəblər həm Temu, həm Trendyol, həm də digər beynəlxalq ticarət platformalarında gecikmələrə səbəb ola bilər.

***Ayşən Vəli***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Mərkəzi Gömrük Hospitalının invaziv kardioloqu İlqar Tahiroğlu CHIP-CTO INDIA 2026 beynəlxalq konfransında çıxış edib




***Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu Hindistan Respublikasında keçirilən və dünyanın bir çox ölkəsindən aparıcı invaziv kardioloqları bir araya gətirən CHIP-CTO INDIA 2026 beynəlxalq elmi konfransında məruzə ilə çıxış edib.***

Konfrans çərçivəsində İsveç və Böyük Britaniyadan olan həmkarları ilə birgə müxtəlif ölkələrdən təqdim olunan canlı invaziv kardioloji əməliyyatların nümayiş olunduğu iki elmi sessiya zamanı mürəkkəb koronar müdaxilələr, xroniki total oklüziyaların (CTO) müasir müalicə yanaşmaları və yeni texnologiyalar müzakirə olunub.

Dr.İlqar Tahiroğlu Mərkəzi Gömrük Hospitalının Kardiologiya komandası tərəfindən aparılmış elmi-tədqiqat işini beynəlxalq auditoriyaya təqdim edib. Təqdim olunan araşdırma iştirakçılar tərəfindən maraqla qarşılanıb və müzakirələrə səbəb olub.

Qeyd edək ki, CHIP-CTO INDIA konfransı invaziv kardiologiya sahəsində dünyanın aparıcı mütəxəssislərini bir araya gətirən, canlı əməliyyatlar, elmi sessiyalar və praktiki müzakirələrlə seçilən nüfuzlu beynəlxalq platformadır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**